# QMİ sədri Nyu Yorkda BMT rəsmiləri və beynəlxalq təşkilatların nümayəndələri ilə görüşüb






**Qafqaz Müsəlmanları İdarəsinin sədri (QMİ) Şeyxülislam Allahşükür Paşazadə ABŞ səfəri çərçivəsində BMT Baş katibinin müavini Migel Anxel Moratinosla görüşüb.**

QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Migel Anxel Moratinos Şeyxülislam A.Paşazadəni təşkilatın ofisi və işçi heyəti ilə tanış edib. Sonra tərəflər arasında qarşılıqlı maraq doğuran məsələlər və gələcək üçün birgə fəaliyyət ətrafında fikir mübadiləsi aparılıb.

M.A.Moratinos Azərbaycan xalqını Ermənistanla sülhün bərqərar olması münasibətilə təbrik edib. Bildirib ki, BMT-nin Sivilizasiyalar Alyansı olaraq bundan sonra da Azərbaycanla sıx əlaqələri davam etdirmək niyyətindədirlər.

Tərəflər həmçinin gələn il Azərbaycanda Qafqaz Müsəlmanları İdarəsi, Müsəlman Ağsaqqalları Şurası və BMT-nin Sivilizasiyalar Alyansının təşkilatçılığı ilə keçiriləcək İslamofobiya ilə mübarizə konfransını, eləcə də BMT-nin Sivilizasiyalar Alyansının bu ilin dekabr ayında Səudiyyə Ərəbistanında təşkil edəcəyi növbəti qlobal forumu müzakirə ediblər.

Bundan başqa, QMİ sədri "Dinlər Sülh Uğrunda" Təşkilatının həmprezidenti və Ümumdünya Şurasına üzv seçilməsi ilə əlaqədar rəhbərlik etdiyi nümayəndə heyəti ilə birlikdə təşkilatın Nyu Yorkdakı baş ofisini ziyarət edib.

Nümayəndə heyətini təşkilatın Baş katibi Frensis Kuria qarşılayıb, onlara rəhbərlik etdiyi qurumun strukturu və fəaliyyəti barədə ətraflı məlumat verib.

Şeyxülislam isə F.Kurianı Azərbaycandakı multikulturalizm və dinlərarası harmoniya mühiti haqqında məlumatlandırıb, bu mühitin formalaşmasında Ulu Öndər Heydər Əliyevin müstəsna rolundan, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət və qayğısından, ölkəmizdə fəaliyyət göstərən Dini Konfessiyaların Məşvərət Şurası haqqında danışıb.

Baş katib "Dinlər Sülh Uğrunda" təşkilatının Azərbaycanın dinlərarası dialoq və əməkdaşlıq sahəsində malik olduğu böyük təcrübədən bəhrələnəcəyini qeyd edib.

---

Azərbaycan.- 2025.-15 oktyabr (№221).- S.14.